Ədəbiyyat qəzeti
21
12 dekabr / 2020

Hüseyn BAĞIRLI

# Azərbaycan-Türkiyə

*Düşmənlər gecə-gündüz*
*Min bir hiylə yapsa da.*
*Lap belə Sur çalınsa,*
*Lap qiyamət qopsa da*
*Qopmasın bir-birindən*
*Azərbaycan-Türkiyə.*

*Bir millət, iki dövlət*
*Deyən öyülsün gərək.*
*Bu birlik hər nəfəsdə,*
*Hər an duyulsun gərək.*
*Dost da, düşmən də görsün*
*Örnəkdir hər ölkəyə*
*Azərbaycan-Türkiyə.*

*Yeri gəlsə ömrü də*
*Tən yarıdan bölməli.*
*Bir yerdə ağlamalı*
*Bir yerdə də gülməli*
*Azərbaycan-Türkiyə*

*Bir əldə Misri qılınc,*
*Bir əldə "Quran" olsun.*
*Böyüsün gündən-günə*
*Əbədi Turan olsun*
*Azərbaycan-Türkiyə.*

*Ehey, Turan elləri*
*Oyanmaq zamanıdı.*
*Dağlar kimi yan-yana*
*Dayanmaq zamanıdı.*
*Necə ki, dayanıbdır*
*Azərbaycan-Türkiyə.*

*İlahi, özün qoru*
*Yerin-göyün şərindən.*
*Qəfildən Yer kürəsi*
*Qopsa da məhvərindən.*
*Qopmasın bir-birindən*
*Azərbaycan-Türkiyə.*